## *İlham Əliyev:*

# Bizim siyasətimiz Azərbaycan maraqları üzərində qurulubdur



**Beynəlxalq münasibətlər sistemində baş verən gərgin hadisələr fonunda iqtisadi inkişafı ilə fərqlənən müstəqil Azərbaycan xarici siyasəti və prinsipiallığı ilə seçilir. Bunun əsas səbəbi, əlbəttə ki, güclü siyasi iradənin mövcudluğudur. Bu iradə özünü həm daxili, həm də xarici siyasət məsələlərində göstərir.**

Eyni zamanda, ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması imkan verir ki, xarici arenada da sözümüzü deyək, maraqlarımızı müdafiə edək. Bu gün Azərbaycan beynəlxalq siyasətə təsir imkanları artan ölkə kimi tanınır, regionda, dünya birliyində gedən proseslərdə rolu artır. Daxili siyasətimizin məntiqi davamı olan diplomatik uğurlarımız beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində fəal iştirak edən Azərbaycanın qarşıdakı illər üçün proqnozlaşdırılan dinamik inkişafının fəaliyyət proqramıdır.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzvlüyünü tarixi, siyasi qələbə kimi, dəyərləndirən Prezident İlham Əliyevin bildirdiyi kimi dünya birliyinin etimadını, etibarlı tərəfdaş kimi inamını qazanan ölkəmiz müstəqil, hüquqi dövlətdir və beynəlxalq aləmdə dostlarımız artır, dünya siyasətinə təsir imkanlarımız genişlənir.

2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv kimi təmsil edən Azərbaycanın qazandığı uğur ölkəmizin beynəlxalq münasibətlər sistemində rolunu artırdı, mövqeyini gücləndirdi.

Özünü dünyaya inteqrasiya və təqdim etməyi qarşısına məqsəd qoyan gənc dövlət üçün bu, böyük nailiyyət idi ki, düşünülmüş xarici siyasətimiz nəticəsində buna nail olundu. 155 üzv ölkənin namizədliyimizin lehinə səs verməsi o demək idi ki, beynəlxalq ictimaiyyətin əksər hissəsi Azərbaycana etimad göstərir, onu dəstəkləyir və etibarlı tərəfdaş hesab edir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasında üzvlüyü və iki il davam edən sədrliyi çox uğurlu olmuşdur. Məhz bu dövrdə dünyada sülhə, təhlükəsizliyə, sabitliyin təminatına yönəlmiş maraqlı tədbirlər həyata keçirildi.

Dünya birliyinin üzvləri ilə konstruktiv münasibətlər quran və əməkdaşlığa böyük önəm verən Azərbaycanın eyni məkanı paylaşdığı Avropa ölkələri ilə ikitərəfli əlaqələri uğurla inkişaf və davam edir. Azərbaycan ilə Avropa arasında tarixi əlaqələr müstəqillik illərində daha da möhkəmlənib. Eyni zamanda, Azərbaycan müsəlman ölkəsi kimi İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Yəni ölkəmiz nəinki coğrafi baxımdan, o cümlədən mədəni və siyasi baxımdan regionda mühüm körpü rolunu oynayır.

Azərbaycanın beynəlxalq səviyyədə təsdiq olunmuş ərazi bütövlüyünün tanınması xarici siyasətimizin ana xəttini təşkil edir. Dəfələrlə qeyd olunduğu kimi, region üçün təhlükə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində səylərin artırılması ölkəmizin uğurlu diplomatik gedişləri nəticəsində mümkün olmuşdur. Azərbaycanlıların erməni silahlıları tərəfindən etnik təmizlənməyə məruz qalması, bir milyon soydaşımızın öz ölkəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi rayonun iyirmi ildən artıqdır ki, işğal altında qalması böyük ədalətsizlikdir. Heç bir ölkə, o cümlədən Ermənistan Dağlıq Qarabağdakı qeyri-qanuni rejimi müstəqil qurum kimi tanımayıb. Dünyanın ən ali beynəlxalq orqanı - BMT-nin Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu günədək BMT, AŞPA, İƏT kimi nüfuzlu təşkilatların qəbul etdikləri qətnamələrin həllini tapmamasını dünya siyasətinin düzənini pozan ikili standartların nəticəsi adlandıran Prezident İlham Əliyev ən yüksək kürsülərdən belə vəziyyətə kəskin etirazını bildirməklə Azərbaycanın haqq işinin qalib gələcəyinə inamını da diqqətə çatdırır: "Təəssüf ki, öncə qeyd etdiyim kimi, bu qətnamələr icra edilməyib. Bu, bir daha ikili standart siyasətini göstərir. Çünki bəzən görürük ki, BMT-nin qətnamələri bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə bu, iyirmi ildən çox çəkir. Mexanizm isə yoxdur. Ermənistan əraziləri tərk etmək istəmir. Onlar işğal etdiyi ərazilərdən çıxmaq istəmir. Onlar hər bir şeyi olduğu kimi saxlamaq istəyirlər. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Bu, beynəlxalq vasitəçilərin göstərdiyi səylərə tam ziddir...Müvafiq qətnamələr Avropa Parlamenti tərəfindən də qəbul edilib. ATƏT-in qərarları vardır. Buna görə, Ermənistan rəhbərliyi digər ölkənin ərazisinin XXI əsrdə zəbt edilməsinin qəbuledilməz olduğunu nə qədər tez anlasa, bir o qədər onlar üçün yaxşı olar. Əfsuslar olsun ki, Ermənistan rəhbərliyindən adekvat yanaşmanı görmürük."

Qarabağ münaqişəsi ilə əlaqədar məsələlərin müzakirəsi zamanı Ermənistanın təcavüzkarlıq siyasətini pisləyən qətnamələrdə birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi ölkəmizlə əməkdaşlığa maraqdan irəli gəlir. "Biz enerji diplomatiyamızı aparırıq. Biz mədəniyyət diplomatiyamızı aparırıq" söyləyən Prezident İlham Əliyev eyni zamanda vurğulayır ki, coğrafi vəziyyətimiz elədir ki, bizim razılığımız olmadan bu bölgədə heç bir qlobal layihənin reallaşması mümkün deyil. Son illərdə Avropa İttifaqı dövlətlərinin enerji təminatı üçün nəzərdə tutulan Cənub Qaz Dəhlizi, TANAP, TAP kimi layihələrə marağın artması xarici siyasətimizə əlavə uğurlar qazandırır. "Enerji təhlükəsizliyi ölkələrin əslində milli təhlükəsizliyi deməkdir" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın enerji təhlükəsizliyinin təminatında tutduğu mövqe neft strategiyasının zəfəri olmaqla yanaşı, ölkəmizi dünyada tanıdan və marağı artıran xarici siyasətimizin də qələbəsidir.

Avropa İttifaqı Şurasının (AİŞ) prezidenti Donald Tuskun ölkəmizə səfərini əməkdaşlığın genişləndirilməsi üçün önəmli mərhələ adlandıran ekspertlərin qeyd etdikləri kimi, qitə dövlətləri ilə münasibətlərimizin hərtərəfli inkişafı üçün belə görüşlər önəmlidir. "Bu gün biz ümumi strateji maraqlarımıza xidmət edən Cənub Qaz Dəhlizi layihəsinin inkişaf etdirilməsi və rəqiblərimizin nə etməsindən asılı olmayaraq onun vaxtında tamamlanmasını təmin etməklə bağlı həmrəyik" söyləyən D.Tusk əlavə olaraq bildirdi ki, Avropa İttifaqı artıq Azərbaycanın əsas ticarət tərəfdaşıdır və onun önəmli sərmayədarlarındandır. AİŞ-in prezidenti Azərbaycan üçün əsas problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də münasibətini bildirərək vurğuladı ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir: "Avropa İttifaqı və ona üzv olan ölkələr "Dağlıq Qarabağ respublikası"nı tanımır. Status-kvo qəbulolunmazdır və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması Avropa İttifaqı üçün prioritet olaraq qalır."

Neçə illərdir ki, Avropa İttifaqı ilə qonşuluq proqramında, enerji dialoqundayıq. Bu isə qarşılıqlı əməkdaşlıq, dünya birliyi üçün vacib amildir.

Beynəlxalq hüquq normalarına, ədalət prinsiplərinə sadiq qalan, hörmətlə yanaşan, başqa dövlətlərin daxili işlərinə müdaxiləni yolverilməz hesab edən Azərbaycana marağın artması ölkəmizin bu prinsiplərə sadiqliyinin ifadəsidir.

Azərbaycanın müasir dövlətə çevrilməsi, ölkədə bəşəri dəyərlərə əsaslanan təsisatların yaranması, dövlətlərarası münasibətlərdə milli maraqların üstünlük təşkil etməsi ümdə məsələ kimi siyasətimizin istiqamətlərini təşkil etməklə respublikamızın dünya birliyində mövqeyinin möhkəmləndirilməsi məsələsi də prioritet kimi daim aktuallığını qoruyur. Əsas məsələ isə əməkdaşlıqda ölkəmizin qazanacağı imic, potensial və siyasətimizin dəstəklənməsidir. Ölkəmizin beynəlxalq təşkilatlarda təmsilçilik məsələsinin önəmini diqqətə çatdıran Prezident İlham Əliyev bu sahədə daha diqqətli olmağın vacibliyini də vurğulayır: "Mən bəzi hallarda dövlət məmurlarından, deputatlardan, ictimai xadimlərdən eşidirəm ki, biz Avropaya inteqrasiya etməliyik. Siz bunu deyəndə bir düşünün. Birincisi, Prezidentin mövqeyini bilməlisiniz. İkincisi, siz necə inteqrasiya edəcəksiniz, hansı formada inteqrasiya edəcəksiniz? Bu inteqrasiya sizə lazımdırmı, yoxsa yox? Hansı simada Azərbaycanı orada qəbul etmək istəyirlər? İkinci dərəcəli üzv kimi, assosiativ üzv kimi, yaxud da kənardan sanki yapışan bir ölkə kimi? Bu format bizə lazım deyil. Biz hara lazımdırsa inteqrasiya etmişik...

Biz heç yerə inteqrasiya olmuruq. Hara olmuşuq, kifayətdir. Lazım olarsa, yenə də başqa birliklərə də üzv olarıq, ancaq bərabərhüquqlu tərəfdaş kimi, ləyaqətli ölkə kimi... Bizim siyasətimiz Azərbaycan maraqları üzərində qurulubdur. Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz."

Dünyanın ədalət prinsipinə təsir imkanlarının artdığı bir zamanda, ölkəmizin də ikili standartlardan zərər çəkdiyi məqamlarda belə xarici siyasətimizin konturlarını, istiqamətlərini düşünülmüş şəkildə müəyyənləşdirən və yolumuza çıxan əngəllərə qarşı lazımi səviyyədə mübarizənin aparılacağını qətiyyətlə bildirən Prezident İlham Əliyevin "İlk növbədə, dünya erməniliyi, erməni lobbisi bizi hədəf seçib, onların himayəsində olan riyakar, rüşvətxor siyasətçilər bu işlərə qoşulub. Xüsusilə, bu, Qərb siyasətçilərinə aiddir. Erməni pulları ilə özünə həyat quran konqresmenlər, senatorlar, deputatlar, islamofob siyasətçilər və s. ünsürlər Azərbaycana qarşı müharibə elan ediblər. Əfsuslar olsun ki, bu gün Avropada faşizm, irqçilik, islamofobiya, ksenofobiya, antisemitizm baş qaldırır... Yəni, Avropa Oyunları ərəfəsində və Oyunlar zamanı bizə qarşı informasiya müharibəsi ən şiddətli mərhələyə qədəm qoymuşdu. Ancaq bu informasiya müharibəsində Azərbaycan xalqı və dövləti qalib gəlib. Çünki bu kampaniya və bu kampaniyanın son mərhələsi bir daha göstərib ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. O qətnamələr bizim üçün kağız parçasıdır. Ona görə, heç kim onları heç vaxt icra etməyəcək. Bunu bilsinlər, Azərbaycan xalqı bilsin və o çirkin yazıları tərtib edənlər də bilsinlər. Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə, bax, bu istiqamətdə gedəcəyik" sözləri antiazərbaycan kampaniyası aparan Avropa Parlamentinə, Almaniya Bundestaqına, səlahiyyətsiz qeyri-hökumət təşkilatlarına mesajdır.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***